# KƏSİLMƏYƏN KİŞNƏRTİ

## Qiyamətə qalmayan qisasın hekayəti



Əli Rza XƏLƏFLİ

(esse-poema)

*Xocalı qırğını (1992-ci il 26 fevral) və Əli ibn Əbu-Talibin xəndək davasındakı şücaəti*

Ey könül, min həvəslə sən gedirsən sabaha,
Qəlbində yaxşı-yaman, tən gedirsən sabaha.
Bəlkə bir də qayıtdın, yola, izə yaxşı bax,
Gözlərində sis, duman, çən gedirsən sabaha.

Min bir ağrı-acını, dərdi çəkən görmüsən,
Yorulub yolda qalan, özü çökən görmüsən.
Yollarına daş qoyub, tikan əkən görmüsən,
Təmkinində, səbrində gen gedbirsən sabaha.

Yaddaş səni çağırır, ün üzünə gəl, deyir,
Həsrəti oda tutub, yan üzünə gəl, deyir.
İstəyin, arzuların gün üzünə gəl deyir,
Açılıb təzə səhər, dan, gedirsən sabaha.

Ayrılıqda yandığın ömürdən, yaşdan keçib,
Kitab-kitab yazdığın sözdən, yaddaşdan keçib.
Oğul-oğul dağlanan qayadan, daşdan keçib
Hər qarış torpağında qan, gedirsən sabaha.

Diridən keçib gələn selə, suya qarışdın,
Xudafərin üstündə inadınla duruşdun;
Qurbanidən öyrəndin, Zəlimxandan soruşdun,
Müdriklər göstərdilər yön, gedirsən sabaha.

Ey könül, həmdəm oldun qucmağa qollarıma,
Nəğməli bülbülümsən tikanlı kollarıma.
Haləndə pərvanəyəm, çıraq ol yollarıma,
Sönməyən bir günəşsən, yan, gedirsən sabaha.

Ey könül, bəxtinə de, özü çəksin təhəri,
Xələfliyə söyləsin, atsın qəmi, qəhəri.
İlhamın göy üzündə açsın təzə səhəri
Qanad çal zirvələrə, qon, gedirsən sabaha.

Salam olsun adına, dərgahına, Allahım,
Salam olsun hər gələn sabahına, Allahım.

Qəlbimə təpər göndər ətalətdən çıxım mən,
Sözümün əyarına ədalətdən baxım mən.

Nəzərin yaxşı görür, mən kiməm, gücüm nədir?
İlhamıma yol açsan görərsən öcüm nədir.

Sən istəsən görərəm bu dünyada hər rəngi,
Eşqinlə yaradaram ətirli söz çələngi.

Allahım, tək deyiləm, bilirəm ki, sən varsan,
Yolunda düz olana vəfasan, etibarsan.

Qəmlərim başdan aşıb məni çəksə dərinə,
Qalib gələr təpərim qəlbimin kədərinə.

Harda çətinə düşsəm adın gələr dilimə,
Təzə təravət gələr çiçəyimə, gülümə.

Adınla başlayıram bu yazımı, sözümü,
Eşqinlə yandırıram ocağımı, közümü.

İllərdir səngimədən qəlbim ağrı daşıyır,
Kəsilməyən kişnərti varlığımda yaşayır.

Kərəminlə çözərəm qaçılmaz sirr düyünü,
Ovsunumla açaram açılmaz hər düyünü.

İlhamım qanadlanır sözümün göylərində,
Misralar dil-dil ötür eşqimin səhərində.

Allahım, sən sevəni mən də sevdim əzəldən,
Hikmət aldım, pay aldım düşüncəsi gözəldən.

Mən Həzrəti Əlini sənin kölgən bilmişəm,
Haqsızlıqlar önündə bayraq-bəlgən bilmişəm.

Ruhuma bulaq kimi Əlidən hikmət gəlib,
Əli eşqi, sevdası qəlbimə qismət gəlib.

Allahım, hər nə yazsam bitməz öygü yolunda,
Mən Əli aşiqiyəm sənə sevgi yolunda.

Sənə doğru yolumda Əli bələdçim oldu,
Soldu şəklər, şübhələr qəlbimə inam doldu.

Xalqımızın dilində Allahın adı vardı,
Hər igidin qəlbində bir Əli odu vardı.

Yağıların tapdağı olanda Vətənimiz,
İnam oldu çarəsiz qalanda Vətənimiz.

Əli nuru eşqinə yağı üstə yeridik,
Olmadıq pərən-pərən, olduq dəstə - yeridik.

Savaşda igidlərin kəsiləndə taqəti,
Yada düşdü Əlinin tükənməz şücaəti.

Ya Əsədullah, deyən bir Əlinin adında,
Allahın şiri gəldi inamların atında.

Bir qərinə üstündən dönürəm mən keçmişə,
Cavab verim zamanın qəlbindən qan içmişə.

Tarixdə qalan acı yaddaşlardan silinməz,
İzi itsə olanın heç dəyəri bilinməz.

Xocalı faciəsi - ötən əsrin dərd günü,
Taleyinə qar yağan insanların sərt günü.

Xəndək üstə savaşda kişnəyən atın bəxti,
Xocalıda qaralan zamanın, vaxtın bəxti.

İki tarix, iki vaxt qoşalaşır bu yerdə,
Sözün bağrı yarılır, qanı daşır bu yerdə.

İslamın tarixində bir Xəndək savaşı var,
Bir atın kişnərtidə yaşayan göz yaşı var.

Heç Allah da saxlamır qisası qiyamətə,
Qala bilməz haqsızlıq, qısası, qiyamətə.

Axır ki, yaddaşımdan gəlib keçir Xocalı,
Qəlbimin yarasından qanlar içir Xocalı.

Kimsəsizlik çökmüşdü bu şəhərin üstünə,
Tökülən göz yaşıydı hər qəhərin üstünə.

Dörd tərəfdən kəsmişdi yağı düşmən yolları,
İmdada çağırırdı çarəsizlik qolları.

Haray çağıran səslər nə sözündə göyərir,
Nə dağında göyərir, nə düzündə göyərir.

Danışan bir kimsə yox, insanlığın adına,
Bir kimsə hay vermirdi şəhərin fəryadına.

Təcili teleqramlar düzülürdü sıraya,
Cavaba bir kimsədən xəbər gəlmir haraya.

Prokuror hay salır, Xocalı can üstədir,
Xocalı qurbanlıqdır, kasada qan üstədir.

Atakişi yanğıyla «dilə gəlin», söyləyir,
Göz açın, baxın, burda dağ-daş fəryad eyləyir.

Beləcə günlər keçdi, bir kömək də gəlmədi,
Açılan səhərlərin heç üzü də gülmədi.

Hacı Atakişinin - o günləri görənin,
Hər sözü qan ağlayır, bu acı xatirənin.

Seyidağa Mövsümlü qan-yaş tökür gözündən,
Tarixin qanı süzür kəlməsindən, sözündən.

Çingiz Fuadoğlunun reportajı göstərir,
Hər körpənin gözləri gördüyündən köz dərir.

Danışır xronika bu acı mənzərəni,
Sözə necə gətirim ürəkdə közərəni?

Qar üstündə quruyub başı əzilmiş qoca,
Bir qədər aralıda başı kəsilmiş qoca.

Bu yanda bir körpənin güllə yeri başında,
Yaddaş bunu saxlayar torpağında, daşında.

Bir ananın qarnını süngü ilə deşiblər,
Bir uşağın gözünü xəncər ilə eşiblər.

Qar üstündə güllənən qönçələr də gül açıb,
Danışır acı sükut, yana-yana dil açıb.

Dərədən keçən yolda cəsədlər yan-yanadır,
Unutmasın qoy yağı, qisas da qan-qanadır.

Bir ananın döşündən süd əmən körpə donub,
Bir atanın gözündə qaralıb, ümid sönüb.

Sanmayın yazılanlar bir rəssamın işidir,
Bir kimsə söyləməsin fələyin gərdişidir.

Erməni vandalları törədib bu əməli,
Vandalizmin xisləti cinayətin təməli.

Bir balaca qızın da gəlinciyi əlində,
Sıxılıb sinəsinə, donub sözü dilində.

Öldürülüb qızcığaz, güllələnib gəlincik,
Qızcığazın əlində qan bələnib gəlincik.

Xocalının səsini eşidən yox dünyada,
Doğrusu göyə çıxan yalanı çox dünyada.

Danışır Atakişi, gözlərindən yaş süzür,
Ağrıları qəlbindən sanasan göy daş süzür.

Neçə qapı döydümsə, dedilər çox şişirtmə,
Dəyirmanda deyilsən, sözünü de, üyütmə.

(Davamı 9-cu səhifədə)

*(Əvvəli 8-ci səhifədə)*

Yana-yana qaldım mən bir kömək də olmadı,
Fələyin dərd gülləri açılmadı, solmadı.

Acı yaddaş dənini varlığıma əkdim mən,
Bu çəkilməz dərdləri öz canımda əkdim mən.

Məni yandıran odun qovrulurdum içində,
O yanan ürəklərin sovrulurdum içində.

Həmin acı günlərdə qəlbimə səda gəldi,
Belə qalmaz bu dünya, göylərdən nida gəldi.

Mən «Ya Əli» adını çağırdım öz ahımla,
Gələr haqqın qisası yurduma sabahımla.

Bu dünya yaxşı bilir Əli qisas öcüdür,
Haqq yolunda çarpışan doğru-düzün gücüdür.

Burda Xəndək davası, yada düşdü, yeridir
O cəngin, o davanın Əli cəngəvəridir.

Hər zaman bir igidlə tanınar, yadda qalar,
Yaddaşlarda yaşayar, pozulmaz, adda qalar.

İslamın ilk çağında yağılar cəm olmuşdu,
Baş kəsib, qan tökməyə kinlər hirsə dolmuşdu.

Şəhərin dörd yanına dərin xəndək qazılıb,
Allah bilir hər kəsin bəxtinə nə yazılıb?

Dayan hələ, tələsmə, canını mən alaram,
Qürurunu sındırıb, çəkib atdan salaram.

Ancaq mənim şərtim var; islamı qəbul eylə,
Biz də heç savaşmayaq, belə yaxşıdır söylə.

«Yox» söylədi Əbdavud, bu şərtindən "keç" dedi,
Bəlkə, heç savaşmayaq - Əli bunu seç dedi.

Əbdavud inad etdi, düşündü Əli qorxur,
«Bəlkə, heç savaşmayaq» - söyləyən dili qorxur.

Onda Əli söylədi sən atlı, mən piyada,
Mərdlərdə belə savaş hələ yoxdu dünyada.

Əbdavud qəzəb ilə sıçradı atdan yerə,
Qılıncını siyirib tovladı birdən-birə.

Vurdu ayaqlarını bir zərbəylə atının
Bu da lənət damğası... bir zalımın adının.

Qələm oldu dörd ayaq, at yıxıldı xəndəyə,
Sanki yer-göy titrədi, dağ-daş gəldi lərzəyə.

Qələm oldu ayaqlar... qan yağdı ay üzünə,
Bir yanıqlı kişnərti ucaldı göy üzünə.

Bu kişnərti deyirdi mərdlər tutsun yasımı,
Ya Əli, bu namərddən al mənim qisasımı.

Qanı coşdu, kükrədi qəzəbindən Əlinin,
Köz düşdü sinəsinə əsəbindən Əlinin.

Kəsdi Əli qılıncı Əbdavudun başını,
Əli yazdı tarixə o Xəndək savaşını.

Boğa bilmədi müşrik İslamı beşiyində,
Əli kimi bir igid durmuşdu keşiyində.

Əlinin şücaəti... hələ Xeybər qalası,
Yazsam, ayrı dastandır tarixlərdə qalası.

Hər vaxt dara düşəndə o həzrəti anırıq,
Şəhidlik taleyinə biz bu gün də yanırıq.

Dayanmışam üz-üzə dinləyirəm şahidi,
Varlığımda yaşayır o günlərin şahidi.

Bəli, sabiq prokuror indii müdrik qocadır,
Qəlbində Əli eşqi ucalardan ucadır.

Hacı Atakişinin sözü var, atəşi var,
İnamında-qəlbində sönməyən günəşi var.

Məni Allah qorudu... danışır kövrək-kövrək,
Əli eşqim sönmədi... qabarır ürək-ürək.

İnamım xallanmadı... bilirdim gün gələcək,
Vətənə gəl-gəl deyən yollar üzə güləcək.

Bilirdim ki, şücaət yaddaş-yaddaş bitəcək,
«Ya Əli» sədasında özü daş-daş bitəcək.

Allahu-Əkbər deyən haqqın səsi yeridi,
Ya Əli sevdasının hər kimsəsi yeridi.

# KƏSİLMƏYƏN KİŞNƏRTİ

## *Qiyamətə qalmayan qisasın hekayəti*

Yağılar inamlıdır, təbillər cəng çağırır,
At üstündə Əbdavud "gəlsin qənim" bağırır.

Əzvayişi diqqətlə süzür, görür peyğəmbər,
Fikirdə Allahından yolu sorur peyğəmbər.

Kim gedəcək savaşa, bu, Allahın yoludur,
Əlinin cəsarəti qılıncıdır, qoludur.

Peyğəmbər düşüncədə səssiz var-gəl eyləyir,
Əlinin üzərində nəzərini əyləyir.

Qəzəbindən Əlinin gözlərinə qan sızıb,
Hər nə düşsə bəxtinə, bilir ki, Allah yazıb.

İslamın haqq yolunda Həmzə getdi, Allahım,
Şəhidliyin taxtına özü yetdi, Allahım.

Allahım, bu savaşda Əlini özün qoru,
Allahu-Əkbər deyən dilini özün qoru.

«Get» - dedi bu savaşda qələbə səninlədir,
Qalibiyyət toxumu əkdiyin dəninlədir.

Xəndəyin o tayında Əbdavid gərdiş edir,
Özünün qımırını içində diş-diş edir.

Bu, südəmər uşaqdır, gələr görər zərbəmi,
Yaddaşlarda qalacaq bu savaşın hər dəmi.

Əbdavud bağırırdı - varmı mənə tən gələn?
Yaraşmaz ad-sanıma bu meydanda hər ölən.

Xəndəkdən öz atını sıçratdı bu tayacan,
Qəzəbi dartılmışdı kamanacan, yayacan.

Əli gəlib dayandı Əbdavudun önündə,
Yenilməz dağ qüruru durdu yağı yönündə.

Əbdavud at üstündə kinayə, tənə edir,
Qılıncını tovlayıb irəli, geri gedir.

Sənsənmi bu savaşda gücümün bərabəri,
Yoxdumu peyğəmbərin mənə tay cəngavəri.

Əbdavudun görkəmi - enlikürək, uca boy,
Deyərsən div dayanıb ikibaşlı, haça boy.

Köhnə cəngavər idi, çox savaşlar görmüşdü,
Neçə döyüşdən keçib, qanlı başlar görmüşdü.

Yeridi div üstünə Allahın cavan şiri,
Gözləriylə yeyirdi insan donlu bir şəri.

Toqquşdu qılıncları göydə şimşək oynadı,
Bu dünyanın gərdişi haqq işinə aynadı.

Əbdavud qəzəb ilə qılınc çalır dörd yana,
Bu həmlələr önündə kim dura, kim dayana.

Cavan şirin cəldliyi heyrətlə süzülürdü,
Yer-yerdən də alqışlar şəninə düzülürdü.

Həmlələrin birində yara aldı yağıdan,
Peyğəmbər bir ah çəkdi... yeri, göyü dağıdan.

Bu üzbəüz savaşda kimsə gəlməz haraya,
Xışmalayıb torpağı, Əli basdı yaraya.

Əbdavud baxıb güldü, budurmu sənin gücün,
Vuruşdun kimə görə, savaşdın kimin üçün?

Əlinin qətiyyəti sarsılmadı, dönmədi,
Onun inam işığı qaralmadı, sönmədi.

Mən Allahın eşqinə vurşuram, biləsən,
Bir Allahın eşqinə sən nəsən ki, güləsən?

İndi sən gör gücümü - Allahın şiri dedi,
Bir şimşək çaxışıyla qılıncını endirdi.

Kinayəli gülüşə cavabım budur yenə,
İbrət olsun bu zərbə insanlıqdan dönənə.

Allahu-Əkbər ilə sədalandı göylər də,
Sevindi şəhərlər də, yaxın-uzaq köylər də.

Azərbaycan ordusu... dəmir yumruq zərbəsi,
Qırx dörd günə sovruldu yağı hədə, hərbəsi.

Yağıdan təmizləndi torpağımız, daşımız,
Qürurlandı qəlbimiz, ucalandı başımız.

İnsanlığa yad olan erməni qəddarlığı,
Silinməz yaddaşlardan vəhşilərin varlığı.

Məscidlər dağıdılıb, abidələr sökülüb,
Divarlar diş-diş qalıb tağbəndlər də tökülüb.

Xalqın sevgi ünvanı - Əlinin nişangıhı,
Düldülün ayaq izi - qayada aramgahı.

Şəhid daş kurqanında talançılıq izi var,
Malik Əjdər türbəsi - tarixlərin sözü var.

Hayların vəhşiliyi... Əli-islam adına,
Hayların təhqirləri... Peyğəmbər övladına.

Xalqımızın sevgisi açdı bəndi, bərəni,
Haqqımız gücümüzdür - keçdi dağı, dərəni.

Hacının yaddaşından gələnləri toxudum,
Əziz dostum, qardaşım Vilayətə oxudum.

Sevgi ilə dinlədi hər misramı , sətrimi,
Söz-söz çəkdi qəlbinə mənim Əli ətrimi.

Görmüşəm əqidədə yoluna kor olan var,
Kor-koranə bildiyi özünə tor olan var.

Eşqinə sadiqlərin işığı haqdan gələr,
Şəhidliyin yolunda baxtının taxtı gülər.

Söz bilənə yazmışam mən eşqimin adını,
Misralara düzmüşəm sözümün fəryadını.

*(Davamı 16-cı səhifədə)*

KREDO
№ 03 (1259) 24 yanvar 2025-ci il

# KƏSİLMƏYƏN KİŞNƏRTİ

## *Qiyamətə qalmayan qisasın hekayəti*

*(Əvvəli 9-cu səhifədə)*

Əli eşqi görürəm Vilayətin ruhunda,
Beş kimsənə yaşayır nəfəsində, ahında.

Can dedi ilhamıma, sözümə ehtiramla,
Yaz dedi, zaman-zaman bu ahənglə, aramla.

Dost sözü varlığımda dilə gəldi gülləndi,
Sanarsan şeyda bülbül gülə gəldi, gülləndi.

Dedim yazıb gələrəm, Şirvanda ünvanına,
Sözümdə od gəlməsə, baş qoyum divanına.

Azərbaycan bir kitab - yazan, oxuyan olsun,
Özü fikir xalısı, sözü toxuyan olsun.

Bu yerdə yaddaşımla gedirəm Cəbrayıla,
Hər cığırı, hər izi çağırıram ayıla.

Quruyan bulaqlardan gözlərim qan-yaş içir,
Gözlərimin önündən sayrışan yaddaş keçir.

Şəhid olan kəhrizlər gözlərindən quruyub,
Deyərsən ocaq sönüb, közlərindən quruyub.

Gornn çat verdi yəqin Hüseyn ağa Cavanşir,
Qurumuş kəhriz üstə ağrı qəlbimi deşir.

Məhəmməd bəy, gorun yansın... su yoxdu kəhrizində,
Deyimmi daş göyərib xatirəndə, izində.

Qüruru boy göstərən... şəhid olub Xan Çinar,
Bir qərinə həsrətlə yollara baxan çinar.

Budaq-budaq qolların necə qırıldı sənin,
Cəlladların kinindən bağrın yarıldı sənin.

Nə dedin vəhşilərə, baxdınmı gözlərinə,
Şapalaq yarpaqları çırpdınmı üzlərinə.

Bu yerdə Mir Həmzənin sözü tutdu əlimdən,
Könlümdən hər nə sordum, cavab gəldi dilimdən.

«Ey bəxti yegin Mir Nigariyi - xoşəxtər,
Hər şamü-səhər qıl bu iki misranı əzbər.

Ya Rəb, bəni ayırma şahənşahi - vəlidən,
Ya Rəb, bəni dur eyləmə övladi - Əlidən».

Şıx Əfəndi adıyla bir ehtiram ocağı,
Özü Əli eşqinə, sözü sevgi qucağı.

Sözdə bir günəşdir ki, adı Seyid Nigari,
Könüllərin sultanı, sevənlərin qəmxarı.

Tellendi duyğularım Nigari nəfəsində,
Qanad aldı ilhamım eşqimin həvəsində.

«Könlümə nə çarəm var...» sözünə söz tutmuşam,
Təşnəlikdə qəlbimə özündən köz tutmuşam.

Nigariyə bir təxmis, xoş ovqata yazıldı:
Həyatımda xoş günə, xoş saata yazıldı.

Aləmi bəzər könlüm, könlümə nə çarəm var?
Yoluma nəzər könlüm, könlümə nə çarəm var?
Sözümü düzər könlüm, könlümə nə çarəm var?
«Avarə gəzər könlüm, könlümə nə çarəm var?
Bağrımı əzər könlüm, könlümə nə çarəm var?».

Açmaram hər kəsə mən eşqim könlümə pərdəm,
Həmdəmdir özü könlüm daha qəmimə nə qəm?
Neyləyim, qismətimdir, gərək özüm qəm çəkəm,
«Aram eləməz bir dəm, aşüftə gəzər hər dəm,
Canımı üzər könlüm, könlümə nə çarəm var?».

Səsimi eşitməyə bu əhli - şəhər qaim,
Görmürəm bir əlaca, imdada təhər qaim.
Dillənəm, bir söz deyəm, qəlbimdə qəhər qaim,
«Eşqə girişib daim, hər şamu-səhər qaim,
Dərdimi yazar könlüm, könlümə nə çarəm var?».

Durmuşam qulluğunda qəmə tac olan bəxtin,
Həsrətin ocağında yanıb sac olan bəxtin.
Bircə qəmsiz günümə iştahı ac olan bəxtin
«Səhrayə atub rəxtin, dəryaya qurub təxtin,
Hər ləhzə üzər könlüm, könlümə nə çarəm var?»

Açmadı mənə sirrin oldu nəzəri kəm-kəm,
Oda tutdu canımı saymazyana bir görkəm;
Bu da belə könlümdür, gözümdən qan-yaş tökəm,
«Baxmaz sözümə bir dəm, hər dəm sinəmi biqəm
Birgəlik yazar könlüm, könlümə nə çarəm var?»

Çox könüllər arası yol açdı qədəm-qədəm,
Havalandı istəyim yel olam gedəm, gedəm.
Yanağımda axar var, ağlayır didəm, didəm.
«Sevdayə düşüb hər dəm, odlarə yanar dəm-dəm,
İstər ola zər könlüm, könlümə nə çarəm var?»

Ey Xələfli, sən də bil, bir gün gedərəm, amma,
Hardan doğar günəşim, danı güdərəm, amma;
Ustad özü söyləsin, sözdə hədərəm, amma,
«Ey Miri Nigari, gər pünhan edərəm, amma
Dildarı sezər könlüm, könlümə nə çarəm var?».

*Yanvar 2025*

